

"Dünya Çempionatı-2014"ün seçmə mərhələsi çərçivəsində növbəti oyunlar keçirilib. D qrupunda Türkiyə millisi yeni baş məşqçisi Fatih Terimlə seçmə mərhələdə Andorra ilə qarşılaşıb.

Modern.az xəbər verir ki, qardaş ölkə komandası Andoranı 5:0 hesabı ilə məğlub edib. Bu qələbədən sonra Türkiyənin xalı 10-a yüksəlib. İndi Türkiyə sentyabrın 10-da Rumıniyada bu ölkə yığması ilə qarşılaşmda mütləq qələbə qazanmalıdır ki, Dünya Çempionatına gedən yolu açılsın. Rumıniyanın hazırda 13 xalı var.

Əks halda Türkiyə millisi "Dünya Çempionatı-2014"ə çıxa bilmək imkanlarından məhrum olacaq.